EuropeAid




# Avropanın Azərbaycana gətirilməsi

## Aİ-nın İnstitusional Quruculuq Alətləri: Tvinninq/TAIEX/Sigma

## 2008-2013

AVROPA KOMİSSİYASI



Bu nəşrdə təsvir olunmuş bütün layihələr Avropa İttifaqı tərəfindən maliyyələşdirilmişdir.

Avropa İttifaqı layihəsi 1950-ci ildə 6 Avropa ölkəsi Birinci və Ikinci Dünya müharibələrinə səbəb olmuş fəlakətli ixtilafları aradan qaldırmaq və qitədə müharibədən sonra hökm sürən dəhşətli iqtisadi vəziyyətə son qoymaq üçün bir-biri ilə rəqabət aparmaq əvəzinə, əməkdaşlıq etməyə razılaşdıqları zaman həyata keçirilməyə başladı.

Bu gün Aİ 500 milyondan çox vətəndaşı olan 28 ölkənin daxil olduğu ümumi iqtisadi bazara, ümumi valyutaya və ərazisinin əksər hissələrində sərbəst səyahət etmək üçün şəffaf sərhədlərə malik olan bir qurumdur. Aİ və üzv ölkələr dünyada inkişafa yardım göstərən ən böyük donor ölkələr və insan hüquqlarının, demokratiyanın və münaqişələrin sülh yolu ilə həllinin əsas müdafiəçiləridirlər.



Üz qabığında: Polşanın Maliyyə Nəzarəti Qurumu Qiymətli Kağızlar üzrə Dövlət Komitəsində Tvinninq layihəsi çərçivəsində öz Azərbaycanlı həmkarları ilə işləyir.

# Aİ-nin İnstitusional Quruculuq Alətləri – Aİ təcrübəsinin və ən yaxşı təcrübələrin Azərbaycana gətirilməsi

Aİ 20 ildən artıq bir dövr ərzində Azərbaycanı dəstəkləyərək ölkənin dəyişən ehtiyaclarını təmin etmişdir. Bu gün müasirləşdirilmə və Aİ standartlarının qəbul edilməsi istiqamətində hökumətə uğurla yardım göstərən Tvinninq, TAIEX və SIQMA proqramları Aİ-nın əsas dəstək alətləridir.

### Aİ-Azərbaycan – 20 ildən artıq əməkdaşlıq dövrü

Aİ 1990-ci illərin əvvəllərindən başlayaraq Azərbaycanın inkişafına dəstək göstərilməsi məqsədi ilə qrant şəklində 500 milyon manatdan artıq maliyyə vəsaitini təmin etmişdir. Azərbaycanda sosial-iqtisadi vəziyyət inkişaf etdikcə Aİ-nın göstərdiyi yardımın həcmi da genişlənmişdir. Aİ 1990-cı və 2000-ci illərin əvvəllərində, əsasən, humanitar yardım, ərzaq təhlükəsizliyi, infrastrukturun inkişaf etdirilməsinə və azad bazar iqtisadiyyatına keçidə dəstək şəklində birbaşa yardımı təmin etmişdir.

### İqtisadi inkişafın və demokratik dəyərlərin diqqət mərkəzində saxlanması

Azərbaycanda iqtisadi və siyasi vəziyyətin sabitləşməsi ilə yanaşı, Aİ diqqəti iqtisadiyyatın inkişafına, institusional və qanunvericilik sahəsində islahatların aparılmasına, demokratik institutların möhkəmləndirilməsinə yönəltdi.

1995-ci ildə Aİ ilə Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinin (TƏS) imzalanması Azərbaycan hökumətinin bu sahələrdə Aİ standartlarına yaxınlaşma məqsədlərinə sadiqliyini təsdiqlədi. Bu məqsədlər 2005-ci ildə imzalanmış Aİ-Azərbaycan Avropa Qonşuluq Siyasəti (AQS) Fəaliyyət Planında bir daha təsdiqləndi və prioritetləşdirildi. 2009-cu ildən başlayaraq bu proses Azərbaycanın Şərq Tərəfdaşlığı proqramına üzv olması ilə daha da gücləndirilmişdir.

### Aİ-nın Azərbaycanda institusional quruculuq ideyasına sadiqliyi

Bu sazişlərdə müəyyən edilmiş məqsədlərə nail olmaq üçün əsas şərt hər iki tərəfin fəal iştirak etməsidir. Bu məqsədlə, Aİ təkcə 2007-2013-ci illəri əhatə edən dövr ərzində yaxınlaşma prosesində Azərbaycan hökumətini dəstəkləmək üçün 140 milyon manatdan çox vəsait ayırmışdır.

Bu vəsaitin təxminən 65 milyon AZN (45%) İnstitusional Quruculuq alətləri olan Tvinninq, TAIEX və SIQMA proqramları çərçivəsində əməiyyatların həyata keçirilməsinə sərf olunmuşdur. Bunlar Aİ standartlarına yaxınlaşmaq üçün tətbiq olunan bəzi əsas alətlərdəndir. Bu alətlər Avropada istifadə olunan texnologiyaların və təcrübənin ötürülməsi məqsədi ilə Aİ ekspertləri və Azərbaycan hökumətinin rəsmiləri arasında bərabərhüquqlu, qarşılıqlı faydalı əlaqələrin qurulmasına xidmət edir. Azərbaycan dövlətinin bütün qurumlarında bu alətlərin tətbiq olunması mümkündür.

### Aİ-nın İnstitusional Quruculuq Alətləri Azərbaycanda – uğur hekayəsi

Təcrübə göstərir ki, bu alətlər müvəffəqiyyət qazanmışdır. Tvinninq layihəsi çərçivəsində ilk fəaliyyətin başladığı vaxtdan 6 il sonra Azərbaycan özünün 28-ci layihəsini təsdiqləmişdir. TAIEX proqramı çərçivəsində edilən sorğular hər il artmaqdadır. Nəhayət, SIQMA proqramı öz tərəfdaşları ilə əməkdaşlığın genişləndirilməsini davam etdirir.

Bu nəşrdə biz sizi bu alətlərlə daha ətraflı tanış olmağa dəvət edirik. Daha ətraflı məlumat üçün Aİ-nin Bakıdakı Nümayəndəliyi və ya İqtisadiyyat və Sənaye Nazirliyi yanında Proqramı İdarəetmə Qurumu ilə əlaqə yarada bilərsiniz.

# Tvinninq: Nəticəllər əldə etmək üçün tərəfdaşlıq

Tvinninq proqramı Aİ-na üzv dövlətin dövlət qulluqçuları və onların benefisiar ölkələrdən olan həmkarları arasında texniki təcrübənin birbaşa mübadiləsi yolu ilə benefisiar ölkələrin Aİ-nın ən yaxşı təcrübələrinə və standartlarına yaxınlaşmasına və onları qəbul etməsinə kömək edir.

İlk olaraq Aİ-na üzvlükdən əvvəl namizəd ölkələrin Aİ standartlarını qəbul etmələrinə yardım etmək üçün yaradılmış Tvinninq proqramı sonradan Şərq Tərəfdaşlığı və Aralıq dənizi ölkələrini də əhatə etməsi üçün genişləndirildi. Azərbaycan Tvinninq layihələrindən faydalanmağa 2008-ci ildən başlamışdır.



Niderland ekspertləri Tvinninq layihəsinin bir hissəsi kimi Dövlət Əmək Müfəttişliyinin əməkdaşları üçün təlim keçirirlər.



TVİNNİNQ

Tvinninq layihəsi çərçivəsində tədbirlər 2-3 il davam edir və aşağıdakı əsas xüsusiyyətlərə malikdir:

- Ümumi qəbul edilmiş və konkret mütləq nəticələrin əldə edilməsi istiqamətində işləmək üçün Aİ-na Üzv Dövlət və benefisiar dövlət qurumu öz üzərlərinə öhdəlik götürürlər;
- Rezident Tvinninq Müşaviri (RTM) kimi tanınan ekspert Aİ Üzv Dövlətin qurumundan layihə müddətində tam ştatlı işçi kimi benefisiar ölkəyə ezam edilir. RTM islahatların və ən münasib təcrübələrin hazırlanması və həyata keçirilməsi üçün layihə müddətində birbaşa benefisiar ölkənin dövlət qulluqçuları ilə işləyəcək;
- Benefisiar ölkələrdən olan tərəfmüqabilləri ilə texniki məsələlər üzrə bərabərhüquqlu mübadilə münasibətləri əsasında işləyəcək Aİ-na üzv dövlətin dövlət qulluqçuları qısamüddətli missiyalar vasitəsilə əlavə texniki bilikləri təmin edirlər.

Tvinninq layihəsi xüsusilə bunlara görə faydalıdır:

- Qanunvericiliyin işlənib hazırlanmasına və/və ya təkmilləşdirilməsinə yardım;
- Yeni qanunların/standartların/islahatların həyata keçirilməsinə yardım;
- Ekspert qiymətləndirmələrinin və məsləhətləşmələrinin təmin edilməsi;
- Təşkilati strukturun təkmilləşdirilməsinə yardım;
- Təlimlərin, konfransların, təlim səfərlərinin təşkil olunması.
- Organisation of trainings, conferences, study tours.

Tvinninq layihələri Avropa İttifaqı tərəfindən maliyyələşdirilir. Benefisiar tərəfdaş ölkə layihəyə insan resurslarını, ofis otaqlarını, təlim/konfrans yerlərini və şərhlərini təqdim etməklə yardım edir.

# Müsbət dəyişiklik: Tvinninqlə Azərbaycanda 6 il

Azərbaycanda ilk Tvinninq layihələri 2008-ci ildə Qida Təhlükəsizliyi, Enerji və Standartlaşdırma sahələrində həyata keçirilmişdir. Tvinninq proqramı hökumət qurumları tərəfindən çox yaxşı qəbul edilmişdi. O vaxtdan bəri Tvinninq proqramı xüsusunda Azərbaycan müxtəlif həyata keçirilmə mərhələlərində olan 26 layihə ilə regionda liderə çevrilmişdir.

1 dekabr 2013-cü ilə Tvinninq Layihələrinin statusu




Tvinninq keyfiyyətli nəticələr verir: Azərbaycanda Tvinninq proqramının 2012-ci ildə başa çatdırılmış müstəqil qiymətləndirilməsi belə bir qənaətə gəlmişdir ki:
“Tvinninq proqramı çərçivəsində əməliyyatlar ümumiyyətlə yaxşı həyata keçirilib və nəticələr planlaşdırıldığı kimi əldə olunmuşdur ... Mütləq Nəticələr benefisiarlar tərəfindən istifadə olunmuş ... və onların fəaliyyətində müsbət dəyişikliklərə gətirib çıxartmışdır”.

Aşağıda: Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsini dəstəkləyən Tvinninq layihəsinin bir hissəsi kimi Fransız mütəxəssisi təqdimat keçirir.






Yuxarıda: Dövlət Baytarlıq Xidməti sahəsində həyata keçirilmiş Tvinninq layihəsi çərçivəsində ispan ekspertləri mal-qaranın birkalanma qaydasını göstərirlər.

## Tvinninq 6 ildə

**20** yeni qanun layihəsi hazırlanmışdır

**23** qüvvədə olan qanunda düzəlişlər edilmişdir

**>70** Aİ ölkələrinə təlim səfəri həyata keçirilmişdir

**>750** Aİ ekspertlərinin Azərbaycanda qısamüddətli müssiyaları keçirilmişdir





Aşağıda: Həyata keçirilmiş Tvinninq layihəsi çərçivəsində Torpaq və Kadastr üzrə Dövlət Komitəsinin əməkdaşları üçün İsveçdə toprlaqların qeydiyyatı mövzusunda təlim sessiyası.




31 dekabr 2013-cü ilə Aİ-na hər bir Üzv Dövlət tərəfindən Azərbaycanda icra edilmiş Tvinninq layihələri






Yuxarıda: Fövqəladə Hallar Nazirliyinin Nüvə və Radioloji Fəallığın Tənzimlənməsi Dövlət Agentliyinin əməkdaşı azərbaycanlı c-b Vüqar Heseynovla Litvanın Rezident Tvinninq Müşaviri Skirmantas Tvinninq layihəsində iş başında

Azərbaycanda 31 dekabr 2013-cü ildən etibarən Tvinninq layihələrindən bəhrələnmiş Nazirliklər və Qurumlar



# İcra edilən Tvinninq layihəsi: “Əmək təhlükəsizliyi və mühafizəsi sahəsində Dövlət Əmək Müfəttişliyi Xidmətinə Dəstək”

**Müddəti** 04.2011 – 12.2012

**Büdcə** €1,000,000

**Aİ Tərəfdaşı** Almaniyanın Hessen Federal Dövlətinin Sosial Məsələlər Nazirliyi State of Hessen

**Ümumi Müddəalar.** Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi (ƏƏSMN) Azərbaycanda əmək təhlükəsizliyi və mühafizəsi standartlarının icrasına nəzarət edir. Işlə bağlı qəza hallarının daim artması problemi ilə üzləşən ƏƏSMN işə götürənlər və ittifaqlar ilə daha yaxın əməkdaşlığın inkişaf etdirilməsi, beynəlxalq səviyyəli ən yaxşı təcrübələrin qəbul edilməsi, öz müfəttişləri üçün təlimlərin təkmilləşdirilməsi ehtiyacından xəbərdar olmuşdur. Nazirlik bu məsələ ilə bağlı Aİ-nın yardım göstərməsi üçün müraciət etmiş və 2011-ci ildə Almaniya Hökuməti ilə Tvinninq layihəsini başlamışdır.

**Nəticələr** Almaniya ekspertlərinin ƏƏSMN-dakı tərəfmüqabilləri ilə birgə gördüyü işə əsaslanır, aşağıdakı nəticələr icra müddəti 20 ay olan Tivnninq layihəsi çərçivəsində əldə edilmişdir:

- Əmək mühafizəsi və təhlükəsizliyi standartlarının birgə hazırlanması və icrası məqsədilə hökumət, işə götürənlər və həmkarlar ittifaqı arasında üçtərəfli şura qurulmuşdur.
- Beynəlxalq Əmək Təşkilatı (BƏT) standartlarına uyğun olaraq əmək mühafizəsi və təhlükəsizliyi sahəsində yeni qanunvericilik üçün spesifikasiyalar hazırlanmışdır;
- Səmərəli şəkildə zərərli əmək şəraitini müəyən etmək üçün Aİ-standart göstəriciləri təyin edilmişdir;
- Dövlət Əmək Müfəttişliyinin müfəttişləri üçün Aİ və BƏM standart prosedurları təqdim edilmiş və onların icrası üçün müfəttişlər təlim keçmişlər;
- DƏM-nin müfəttişləri üçün təlim sistemi qurulmuşdur;
- İşçilərin əmək mühafizəsi və təhlükəsizliyi qaydaları ilə tanış olması üçün kommunikasiya vasitələri hazırlanmışdır.



Azərbaycan Hökumətinin, sahibkarlar konfederasiyası və həmkarlar ittifaqı nümayəndələri Azərbaycanda əmək təhlükəsizliyi və müdafiəsi standartlarının hazırlanması və icrası məqsədilə birgə işləmək üçün saziş imzalamışlar. Saziş Tvinninq layihəsinin başlanması üçün ilkin şərt olmuş, layihə nəticələrinin icrasında mühüm rol oynamışdır.

**C-b Rauf Tağıyev, DƏMX-nin Rəhbər Müavini**
“Aİ-nın Tvinninq layihəsi böyük dəstək göstərmişdir. DƏMX işə götürənlər tərəfindən əmək qanunvericiliyinə müvafiqliyin təmin olunması baxımından dövlət nəzarətinin yeni konsepsiyasını, bu sahədə onun fəaliyyətində struktur dəyişikliklərinin aparılmasını və hər şeydən öncə, əmək müfəttişlərinin iş keyfiyyətinin artırılmasını yüksək qiymətləndirir”.



TVİNNİNQ

# İcra edilən Tvinninq layihəsi: “Azərbaycan Respublikasının Vergilər Nazirliyinə Kompüterləşdirilmiş Audit Sistemi sahəsində yardımın göstərilməsi”

**Müddəti** 03.2011 – 06.2013

**Büdcə** €1,000,000

**Aİ Tərəfdaşı** Hollandiyanın Vergi və Gömrük Administrasiyası

**Ümumi müddəalar** 2008-ci ildə Nazirlik vergi sisteminə nəzarət sisteminindən vergi ödəyiciləri tərəfindən özünənəzarət sisteminə keçməyə qərar vermişdir. Burada əsas aspekt böyük və orta müəssisələrin məlumat emalının dəstəklənməsi üçün e-audit sisteminin tətbiq edilməsidir. Zəruri hüquqi çərçivənin hazırlanması, e-audit sisteminin seçilməsi və öz heyətinə təlimin keçirilməsi kimi çağırışlarla üzləşən Nazirlik Aİ-na yardım üçün müraciət etmişdir. 2010-cu ildə Hollandiyanın Vergi və Gömrük Administrasiyası tərəfindən icra edilən Aİ Tvinninq layihəsi vasitəsilə Nazirliyə yardım göstərilmişdir.

**Nəticələr** Hollandiya ekspertlərinin Vergilər Nazirliyindəki tərəfmüqabilləri ilə birgə gördüyü işə əsaslanır, aşağıdakı nəticələr icra müddəti 27 ay olan Tvinninq layihəsi çərçivəsində əldə edilmişdir:

- E-audit üzrə hüquqi baza hazırlanmış, Azərbaycanda 2013-cü ilin yanvar ayında qüvvəyə minmiş yeni Vergi Məcəlləsinə daxil edilmişdir;
- Həm Aİ-nın ən yaxşı təcrübə standartlarına, həm də Nazirliyin ehtiyaclarına cavab verən spesifik e-audit sistemi müəyyən edilmiş və icra olunmuşdur;
- E-audit metodologiyası hazırlanmış, yardımçı sənədlər hazırlanmışdır. Auditorlar bunun istifadəsi üzrə təlim keçmişlər.
- Nazirliyin e-auditi üzrə proqram təminatına uyğun olan sistemlər arasında e-mühasibat uçotu sistemlərinin hazırlanması üçün Azərbaycanda iri və orta müəssisələrə yardım göstərilmişdir.
- Pilot e-audit sistemi Azərbaycanda olan orta və iri şirkətlərdə uğurla icra edilmişlər.


Tvinninq komandası, eləcə də Azərbaycanın Vergilər Nazirliyi və Hollandiyanın Vergi və Gömrük Administrasiyasının nümayəndələri.

**C-b Əsəd Əsədov, Vergilər Nazirinin Müşaviri**
“Kompüterləşdirilmiş Audit Sistemi mövzusunda Tvinninq layihəsi Azərbaycanda vergiqoyma sisteminin inkişafı baxımından ən mühüm layihələrdən biri hesab edilir.”

# Tvinninq Azərbaycanda – 2008-2013

## BAŞA ÇATDIRILMIŞ LAYIHƏLƏR

**01 Azərbaycan balıq məhsullarına dair Ərzaq Keyfiyyəti, Təhlükəsizlik Təminatı və Sertifikatlaşdırmanın hüquqi və texniki aspektlərinin təkmilləşdirilməsinə dəstək**
**Benefisiar Qurum:** İqtisadi İnkişaf Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi üzrə Dövlət Xidməti
**Aİ tərəfdaşı:** Niderland / Latviya
**Tarixlər:** 03.09.2008 - 03.09.2010
**Müddət:** 24 ay
**Büdcə [AVRO]** 1 000 000

**02 Azərbaycanda Enerji Sektorunda Qanunvericiliyin Uyğunlaşdırılması və Struktur İslahatları**
**Benefisiar Qurum:** Sənaye və Energetika Nazirliyi
**Aİ tərəfdaşı:** Almaniya
**Tarixlər:** 05.12.2008-05.05.2010
**Müddət:** 18 ay
**Büdcə: [AVRO]** 1 100 000

**03 Standartlaşdırma, metrologiya, uyğunluğun qiymətləndirilməsi və akkreditasiya sahələrində Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyinin imkanlarının gücləndirilməsi**
**Benefisiar Qurum:** Azərbaycan Respublikası Standartlaşma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi
**Aİ tərəfdaşı:** Almaniya / Avstriya
**Tarixlər:** 22.10.2008-22.10.2010
**Müddət:** 24 ay
**Büdcə: [AVRO]** 1 400 000

**04 Azərbaycan Respublikası Baş Prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinə yardım**
**Benefisiar Qurum:** Azərbaycan Republikası Baş Prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsi
**Aİ tərəfdaşı:** Litva
**Tarixlər:** 24.07.2009-24.09.2011
**Müddət:** 24+2 ay
**Büdcə:** [AVRO] 1 000 000

**05 Azərbaycan Respublikası Milli Məclisinə dəstək**
**Benefisiar Qurum:** Azərbaycan Republikası Milli Məclisi
**Aİ tərəfdaşı:** Litva
**Tarixlər:** 27.07.2009-27.12.2011
**Müddət:** 24+5 ay
**Büdcə: [AVRO]** 950 000

**06 Milli hesablar, müşahidə olunmayan iqtisadiyyat, biznes statistikası və istehsalçı qiymətləri indeksi sahələrinin Avropa standartlarına çatdırılması sahəsində Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinə (Dövlətstatkom) dəstək göstərilməsi**
**Benefisiar Qurum:** Azərbaycan Republikası Dövlət Statistika Komitəsi
**Aİ tərəfdaşı:** Almaniya / Bolqarıstan
**Tarixlər:** 01.10.2009-01.03.2012
**Müddət:** 24 ay
**Büdcə: [AVRO]** 900 000

**07 Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin analitik və proqnozlaşdırma potensialının yaxşılaşdırılması vasitəsilə sosial müdafiə siyasətinin təsirliliyinin və səmərəliliyinin artırılması**
**Benefisiar Qurum:** Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
**Aİ tərəfdaşı:** Fransa
**Tarixlər:** 1.09.2010-1.03.2012
**Müddət:** 18 ay
**Büdcə: [AVRO]** 700 000

**08 Ombudsman administrasiyası heyətinin funksional səlahiyyət dairəsinin genişləndirilməsinə və İnsan Hüquqları və Ayrı-seçkilik barədə maarifləndirilmə işlərinə dəstək**
**Benefisiar Qurum:** Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Aparatı
**Aİ tərəfdaşı:** Almaniya
**Tarixlər:** 18.02.2011-18.08.2011
**Müddət:** 6 ay
**Büdcə:** [AVRO] 250 000

**09 Kompüter əsaslı audit sistemi sahəsində Azərbaycan Respublikası Vergilər Nazirliyinə dəstəyin göstərilməsi**
**Benefisiar Qurum:** Azərbaycan Respublikası Vergilər Nazirliyi
**Aİ tərəfdaşı:** Niderland
**Tarixlər:** 01.03.2011-01.06.2013
**Müddət:** 24+3 ay (uzadılmış)
**Büdcə: [AVRO]** 1 000 000

**10 Dövlət Əmək Müfəttişliyinin Azərbaycan Respublikasında istehsalatda sağlamlıq və təhlükəsizliyin təkmilləşdirilməsi sahəsində dəstəklənməsi**
**Benefisiar Qurum:** Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində Dövlət Əmək Müfəttişliyi
**Aİ tərəfdaşı:** Almaniya
**Tarixlər:** 29.06.2011-29.04.2013 (09.10.2013 tarixədək vaxtı uzadılmışdır)
**Müddət:** 18+2 ay
**Büdcə: [AVRO]** 1 000 000

**11 Həssas Ailə, Qadın və Uşaqların Hüquqlarının Müdafiəsi və Təşviq edilməsi məqsədilə Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin İmkanlarının gücləndirilməsi**
**Benefisiar Qurum:** Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi
**Aİ tərəfdaşı:** Fransa
**Tarixlər:** 00/2000 – 00/2000
**Müddət:** 22+5 ay
**Büdcə: [AVRO]** 900 000

**12 Azərbaycan Respublikasında Kənd təsərrüfatı sahəsində ibtidai peşə təhsilinin möhkəmləndirilməsi**
**Benefisiar Qurum:** Azərbaycan Respublikası Təhsil Nazirliyi
**Aİ tərəfdaşı:** Almaniya
**Tarixlər:** 15.08.2011-15.05.2013
**Müddət:** 21 ay
**Büdcə: [AVRO]** 1 200 000

**13 Ölkə üzrə Heyvanların İdentifikasiyası və Təsərrüfatların Qeydiyyatı Sisteminin Hazırlanması üçün Dövlət Baytarlıq Xidmətinə Dəstək**
**Benefisiar Qurum:** Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Xidməti
**Aİ tərəfdaşı:** İspaniya / Polşa
**Tarixlər:** 17.03.2011-17.12.2012
**Müddət:** 21+3 ay
**Büdcə: [AVRO]** 1 000 000

**14 Azərbaycan Respublikasında dövlət maliyyə nəzarətinin təkmilləşdirilməsində Dövlət Maliyyə Nəzarəti Xidmətinə texniki yardımın göstərilməsi**
**Benefisiar Qurum:** Maliyyə Nazirliyi yanında Dövlət Maliyyə Nəzarəti Xidməti
**Aİ tərəfdaşı:** Almaniya
**Tarixlər:** 01.09.2011-01.03.2013
**Müddət:** 18 ay
**Büdcə: [AVRO]** 800 000

**15 Azərbaycanda müəllif hüquqları və əlaqəli hüquqların həyata keçirilməsi sahəsində potensialların artırılması**
**Benefisiar Qurum:** Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi
**Aİ tərəfdaşı:** Yunanıstan / Almaniya / İspaniya
**Tarixlər:** 22.08.2011-01.06.2013
**Müddət:** 18+3 ay
**Büdcə: [AVRO]** 1 100 000





# Tvinninq Azərbaycanda – 2008-2013

## DAVAM EDƏN LAYİHƏLƏR

**16 Azərbaycan Respublikasında dəniz təhlükəsizliyi və dəniz mühitinin mühafizəsi və müdafiəsinin təkmilləşdirilməsi**
**Benefisiar Qurum:** Dövlət Dəniz Administrasiyası
**Aİ tərəfdaşı:** İspaniya
**Tarixlər:** 08.10.2012-07.04.2014
**Müddət:** 18 ay
**Büdcə: [AVRO]** 900 000

**17 Azərbaycan Respublikasının qiymətli kağızlar bazarı üzrə hüquqi və tənzimləyici bazasının Aİ qanunvericiliyinə uyğunlaşdırılması və Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin potensialının artırılması**
**Benefisiar Qurum:** Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi
**Aİ tərəfdaşı:** Polşa
**Tarixlər:** 01.10.2012-31.05.2014
**Müddət:** 20 ay
**Büdcə: [AVRO]** 1 000 000

**18 Aİ-nın qiymətləndirmə standartlarına uyğun olaraq torpaqların bonitirovkası və iqtisadi qiymətləndirilməsi qaydalarının təkmilləşdirilməsi vasitəsilə dövlət torpaq kadastrı məlumatlarının müasir qeydiyyatı sisteminin yaradılması sahəsində Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinə dəstək**
**Benefisiar Qurum:** Torpaq və Xəritəçəkmə Komitəsi
**Aİ tərəfdaşı:** İsveç / Latviya
**Tarixlər:** 08.10.2012-07.04.2014
**Müddət:** 18 ay
**Büdcə: [AVRO]** 900 000

**19 Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin işçi heyətinin peşəkar inkişafına dəstək**
**Benefisiar Qurum:** Dövlət Miqrasiya Xidməti
**Aİ tərəfdaşı:** Niderland / Latviya / Rumıniya
**Tarixlər:** 14.01.2013-13.01.2015
**Müddət:** 24 ay
**Büdcə: [AVRO]** 1 050 000

**20 Azərbaycan Respublikasının radiasiya təhlükəsizliyi infrastrukturunun gücləndirilməsi və dəstəkləyici xidmətlərin inkişafı**
**Benefisiar Qurum:** Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi yanında Nüvə və Radioloji Fəaliyyətin Tənzimlənməsi üzrə Dövlət Agentliyi
**Aİ tərəfdaşı:** Litva
**Tarixlər:** 09.01.2013 - 08.01.2015
**Müddət:** 24 ay
**Büdcə: [AVRO]** 950 000

**21 Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyində Turizm Departamentinin potensial imkanlarının gücləndirilməsi**
**Benefisiar Qurum:** Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
**Aİ tərəfdaşı:** Avstriya / Litva
**Tarixlər:** 11.02.2013-10.05.2013
**Müddət:** 15 ay
**Büdcə: [AVRO]** 900 000

**22 Aİ standartlarına uyğun şəkildə Azərbaycan Respublikasının Milli Statistika Sisteminin müasirləşdirilməsində Dövlət Statistika Komitəsinə Aİ yardımı**
**Benefisiar** Dövlət Statistika Komitəsi
**Aİ tərəfdaşı** ?
**Tarixlər** ?
**Müddəti** 21 ay
**Büdcəsi [EUR]** 1,200,000

## HAZIRLANMA MƏRHƏLƏSINDƏ OLAN LAYIHƏLƏR

**23 Sığorta-pensiya sistemində yığım komponentinin tətbiqi, qeyri-dövlət pensiya fondlarının yaradılması və fəaliyyətinin tənzimlənməsi sahəsində qanunvericilik bazasının hazırlanması məqsədilə Dövlət Sosial Müdafiə Fonduna yardım**
**Benefisiar Qurum:** Dövlət Sosial Müdafiə Fondu
**Aİ tərəfdaşı:** Almaniya / Latviya
**Tarixlər:** TBD
**Müddət:** 18 ay
**Büdcə: [AVRO]** 750 000

**24 Əlilliyi olan şəxslərin tibbi-sosial reabilitasiyası sisteminin inkişaf etdirilməsində Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə dəstək**
**Benefisiar Qurum:** Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
**Aİ tərəfdaşı:** Fransa / Almaniya
**Tarixlər:** TBD
**Müddət:** 24 ay
**Büdcə: [AVRO]** 1 100 000

**25 Azərbaycanda müasir standartlaşdırma sisteminin yaradılmasına dəstək**
**Benefisiar Qurum: Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi**
**Aİ tərəfdaşı:** Böyük Britaniya / Fransa / Sloveniya
**Tarixlər:** TBD
**Müddət:** 24 ay
**Büdcə: [AVRO]** 1 200 000

**26 Avropa İttifaqının tikinti standartlarına kecid sahəsində Azərbaycan Respublikası Fovqəladə Hallar Nazirliyinin Tikintidə Təhlukəsizliyə Nəzarət Dovlət Agentliyinə dəstək**
**Benefisiar Qurum:** Fovqəladə Hallar Nazirliyinin Tikintidə Təhlukəsizliyə Nəzarət Dovlət Agentliyi
**Aİ tərəfdaşı:** Almaniya
**Tarixlər:** TBD
**Müddət:** 18 ay
**Büdcə: [AVRO]** 900 000

**27 Azərbaycan Respublikası Vergilər Nazirliyində insan resurslarının davamlı inkişafı üçün potensialın artırılmasına dəstək**
**Benefisiar Qurum:** Vergilər Nazirliyi
Aİ tərəfdaşı: İspaniya
**Tarixlər:** TBD
**Müddət:** 24 ay
**Büdcə: [AVRO]** 1 000 000

**28 Development of social service provision in Azerbaijan**
**Beneficiary** Ministry of Labour and Social Protection of Population
**EU partner** France
**Dates** TBD
**Duration** 24 months
**Budget [EUR]** 1,100,000

# Avropa İttifaqının ekspertlərindən ani yardım

## Texniki Yardım və İnformasiya Mübadiləsi (TAIEX) Aİ qanunları və standartları ilə tanışlıq, onların tətbiq edilməsi və həyata keçirilməsi istiqamətində benefisiar tərəfdaş ölkələrə yardım edən Aİ alətidir.

TAIEX bərabərhüquqlu münasibətlər əsasında 3 formada qısamüddətli texniki yardım, məsləhət və təlim xidmətlərini təmin edir:

- Aİ-na üzv dövlətin dövlət qulluqçusu Aİ qanunvericiliyi ilə bağlı məsələləri geniş auditoriyaya təqdim və izah etmək üçün **benefisiar ölkəyə gəlir və burada seminarlar keçirir;**
- texniki məsələlər üzrə hərtərəfli praktiki məsləhətlərin verilməsi üçün **Aİ-na üzv dövlətin dövlət qulluğu məsələləri üzrə ixtisaslaşmış ekspertləri tərəfindən benefisiar ölkələrə ekspert missiyaları təşkil edilir;**
- **Aİ ölkələrinə təlim səfərləri,** Aİ standartlarının və qanunlarının necə həyata keçirildiyi öyrənmək üçün benefisiar ölkənin üç nəfərə qədər rəsmisi Aİ-na üzv olan bir dövlətə 5 günə qədər müddətə səfər edə bilərlər.

**Benefisiarlar TAIEX yardımını almaq üçün necə müraciət edə bilərl?**

TAIEX yardımını almaq üçün PİQ ilə əlaqə yaratmaq və TAİEX internet səhifəsinə daxil olaraq “online” rejimdə ərizə formasını doldurmaq lazımdır. Bundan sonra Sizin sorğunuz Aİ tərəfindən qiymətləndiriləcək və əgər heç bir problem yoxdursa, Siz yardımı 30 gün ərzində ala bilərsiniz. TAİEX ilə bağlı bütün xərclər Aİ tərəfindən maliyyələşdirilir.

**Artan maraq: TAİEX Azərbaycanda**

Azərbaycan Respubikasının benefisiar qurumları 2006-cı ildə TAIEX proqramından bir neçə ölkədə keçirilən seminarlarda iştirak etməklə faydalanmışdılar. O vaxtdan bəri, TAIEX yardımı üçün sorğuların sayı ildən ilə artmış və bir çox benefisiar qurumlar TAIEX yardımlarını dəfələrlə istifadə etmişlər. Bu günə Azərbaycanın 1500-dən çox dövlət qulluqçusu bu alətdən faydalanmışdır.

Azərbaycanda, o cümlədən, bir neçə ölkədə keçirilən TAIEX tədbirləri






TAIEX

Azərbaycan: sektorlar üzrə keçirilmiş TAİEX tədbirləri (2008-2013 *)




*1 dekabr 2013-cü il tarixinə

Azərbaycan: TAIEX tədbirlərinin növləri (2008-2013 *)




*1 dekabr 2013-cü il tarixinə

## TAIEX fəaliyyətdə:
## Azərbaycanda coğrafi informasiya sistemlərinin təkmilləşdirilməsi

**Məlumat:**
Azərbaycan Dövlət Statistika Komitəsi (DSK) iqtisadi və sosial həyatın bütün aspektlərini əhatə edən əhəmiyyətli həcmdə statistik məlumatlar hazırlayır. Buna baxmayaraq, bu məlumatlar üçün coğrafi istinadın olmaması onların qərar qəbul edənlərə və geniş ictimaiyyətə çatdırılmasına ciddi maneə yaradır. Bu problemin DSK tərəfindən müəyyən edilmiş ən yaxşı həlli yerin xəritəsini çəkməyə, fəza münasibətlərini təhlil etməyə, habelə məlumatların və statistik rəqəmlərin qarşılıqlı əlaqələri və xüsusiyyətləri aşkar edən yollarla vizualizasiyasına imkan verən CİS tətbiqi olmuşdur.

**TAİEX tədbiri:**
Bir-birindən asılı olan iki missiya zamanı CİS sistemini həyata keçirmək və işçi heyətə bu sistemdən istifadə etməyi öyrətmək üçün Aİ-nın eksperti DSK ilə birlikdə işləmişdir.

**Nailiyyətlər:**
- Dövlətstatkomun əməkdaşları statistika sahəsində CİS-dən istifadənin imkanları və üstünlükləri ilə tanış oldular;
- Əsas statistik məlumatlar üzrə CİS-nin modeli hazırlandı;
- CİS-nin tam iş sistemi Dövlət Statistika Komitəsinin serverinə yükləndi;
- Istifadəçilərin məlumatlara daxil olmasına imkan verən əlverişli coğrafi interfeys.

# SIQMA: Dövlət sektorunda islahatların diqqət mərkəzində saxlanılması

SIQMA (Dövlət İdarəçiliyinin və İdarəetmənin Təkmilləşdirilməsinə Dəstək) dövlət idarəçiliyi sistemlərinin və dövlət idarəetmə orqanlarının potensialının gücləndirilməsi istiqamətində ölkələrə yardım göstərən Avropa İttifaqı və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) birgə təşəbbüsüdür.

SIQMA proqramının ixtisaslaşdığı sahələr:

- Dövlət qulluğunun və dövlət idarəetmə orqanlarının təşkili və fəaliyyəti
- Dövlət büdcəsindən maliyyələşdirmə və audit
- Dövlət satınalmaları
- Siyasətin müəyyənləşdirilməsi
- Strategiya və islahat

Tvinninq və TAİEX proqramlarından fərqli olaraq, SIQMA proqramı çərçivəsində yardım daimi ekspertlər komandasının vasitəsilə göstərilir. Buna aşağıdakılar daxildir:

- qanunvericiliyin və idarəetmə strukturlarının təkmilləşdirilməsinə dair tövsiyələrin verilməsi
- islahatların layihəsi və həyata keçirilməsi ilə bağlı məsləhətlərin verilməsi,
- müxtəlif ölkələrdən ən yaxşı təcrübələrin öyrənilməsi üçün imkanlar,
- siyasət sənədləri və müxtəlif ölkələrdə keçirilən təlimlər.

2008-ci ildən başlayaraq Azərbaycanda SİQMA proqramı çərçivəsində dövlət satınalmaları, dövlət qulluğu və qiymətli kağızlar sahələrinə dəstək göstərilmişdir.

SIQMA proqramı çərçivəsində göstərilən yardım haqqında əlavə məlumat üçün PİQ müraciət edin.

If you are interested in SIGMA support, please contact the PAO for more information.

## SİQMA fəaliyyətdə: Satınalmalar üzrə Dövlət Agentliyinə dəstək

2011-ci ildən başlayaraq SIQMA proqramı çərçivəsində "Dövlət satınalmaları haqqında" Qanunun müasirləşdirilməsi istiqamətində Azərbaycan Respublikası Satınalmalar üzrə Dövlət Agentliyinə dəstək göstərilmişdir. Buna aşağıdakılar daxildir:

- Azərbaycanda keçirilmiş seminarlar silsiləsi. Bu seminarlarda Satınalmalar üzrə Dövlət Agentliyinin əməkdaşları Aİ mütəxəssislərindən və digər maraqlı tərəflərdən layihələrin hazırlanması, müqavilələrin idarə edilməsi, e-satınalmalar üzrə prosedurlar və AB Direktivləri (Klassik, Kommunal Xidmətlər və Hüquqi Yardım və Məsləhətlər) haqqında məlumat ala bilərlər.
- Dövlət satınalmaları haqqında qanunda potensial islahatların keçirilməsi ilə bağlı ekspert məsləhətlərinin verilməsi və Aİ ilə Azərbaycan arasında Assosiasiya Sazişi üzrə danışıqların dövlət satınalmalarına həsr olunmuş fəslinin hazırlanmasına dəstək.



# Ümumi mənzərə: Azərbaycanın Avropa İttifaqı Standartlarına Uyğunlaşdırılması

**1990-cı ildən başlayaraq siyasi və iqtisadi inteqrasiyanın daha da genişləndirilməsi Avropa İttifaqı və Azərbaycan arasında əlaqələrin əsasını təşkil etmişdir. Azərbaycanın Şərq Tərəfdaşlığı proqramına üzv olması ilə bu proses daha da sürətlənəcəkdir.**

### Əməkdaşlığa dair öhdəlik – TƏS və AQS Fəaliyyət Planı

1999-cu ildə Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi (TƏS) qüvvəyə mindiyi gündən Azərbaycan hökuməti xüsusi sahələrdə Aİ standartlarının və təcrübələrinin qəbul edilməsi üçün öz üzərinə öhdəlik götürmüşdür və Aİ bu prosesə dəstək göstərməkdədir. Bu prosesdə Azərbaycan hökumətinə dəstəyin göstərilməsi 2005-ci ildə Aİ və Azərbaycan Respublikası arasında əlaqələri daha da dərinləşdirən və uyğunlaşdırılması üçün nəzərdə tutulmuş sahələri prioritetləşdirən Avropa Qonşuluq Siyasəti Fəaliyyət Planının imzalanması ilə bir daha öz təsdiqini tapdı. Təkcə 2007-2013-cü illəri əhatə edən dövrdə Aİ bu öhdəliklərin yerinə yetirilməsində Azərbaycan Hökumətini dəstəkləmək üçün həyata keçirilən layihələrə 145 milyon AZN-dən çox vəsait ayırmışdır.

### Prosesin izlənilməsi – Əməkdaşlıq Komitələri və İşlərin Gedişatı haqqında Hesabatlar

Layihələrin gedişatına nəzarət etmək üçün xüsusi monitorinq sistemi fəaliyyət göstərir. Azərbaycan hökumətinin və Avropa İttifaqının nümayəndələrindən təşkil olunmuş Əməkdaşlıq Komitələri və Şuralar AQS FP üzrə öhdəliklərin yerinə yetirilməsi istiqamətində görülən işlərin gedişatını ölçmək, habelə qısamüddətli prioritetlər barədə qərar qəbul etmək üçün hər il görüşlər. Aİ bu əks əlaqənin və apardığı araşdırmalar əsasında son bir ildə əldə olunmuş nailiyyətləri müəyyən edən illik AQS üzrə İşlərin Gedişatı Haqqında Hesabat dərc edir. Bu hesabatlar Aİ-nın internet səhifələrində geniş ictimaiyyətə təqdim olunur.

### Şərq Tərəfdaşlığı – əməkdaşlığın inkişafı

2009-cu ildə tətbiq edilmiş Şərq Tərəfdaşlığı proqramı Aİ-na tərəfdaş ölkələrin Aİ ilə siyasi və iqtisadi inteqrasiyasının daha sıx xarakter almasına zəmin yaratdı. 2009-cu ildə bu proqrama qoşulmaqla Azərbaycan hökuməti bu prosesə sadiqliyini bir daha nümayiş etdirdi və yeni əməkdaşlıq sahələrindən faydalana bildi. Buna misal olaraq, Assosiasiya haqqında Sazişin, Dərin və Hərtərəfli Azad Ticarət məkanı paktının və Viza rejiminin sadələşdirilməsi haqqında sazişin imzalanmasını göstərmək olar. Aİ Azərbaycan hökumətinə yardım məqsədi ilə "Hərtərəfli İnstitusional Quruculuq" (HİQ) aləti çərçivəsində 19 milyon AZN vəsait ayırıb. Bu alət Şərq Tərəfdaşlığı proqramının məqsədlərinə nail olmaq üçün nəzərdə tutulmuş strategiyaları müəyyənləşdirən üç İnstitusional İslahat Planından ibarətdir.

### Azərbaycan hökuməti tərəfindən idarəetmə

Azərbaycan hökuməti tərəfindən bu proses bir sıra orqanların vasitəsilə idarə edilir. Ən müvafiq orqan prosesə nəzarət edən və uyğunlaşdırmaq üçün Hökumətin prioritet istiqamətlərini müəyyən edən Qanunvericiliyin Uyğunlaşdırılması üzrə Dövlət Proqramını hazırlayan və icrasına nəzarət edən Azərbaycan Respublikasının Avropaya İnteqrasiyası üzrə Dövlət Komissiyasıdır. Aİ İnstitusional Quruculuq Alətlərinin idarə olunmasına İqtisadiyyat və Sənaye Nazirliyinin nəzdində fəaliyyət göstərən Proqram İdarəetmə Qurumu tərəfindən nəzarət edilir.



Aİ standartlarının qəbul edilməsi naminə əməkdaşlıq

Arxa qabığında: Fernando Kollado Dövlət Dəniz Administrasiyasına dəstək göstərilməsi məqsədi ilə həyata keçirilən Tvinninq layihəsi çərçivəsində öz azərbaycanlı həmkarları ilə əməkdaşlıq edir.

EuropeAid



EUROPEAN
COMMISSION

TWINNING

TAIEX

For more Information, please contact:

**Programme Administration Office in the Ministry of Economy and Industry**
Tel: (+994 12) 493 8867 (ext. 2115)
Email: Ruslan.rustamli@economy.gov.az
Website: www.twinning.az

**EU Delegation to the Republic of Azerbaijan**
Tel: (+994 12) 497-20-63
Email: Delegation-azerbaijan@eeas.europa.eu
Website: www.delaze.ec.europa.eu”